

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

17 noyabr 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 45 (3608)

# AZƏRBAYCAN TÜRK DÜNYASININ BİR PARÇASIDIR




Son zamanlar dünyada baş verən geosiyasi proseslər fonunda Türk dövlətləri öz əməkdaşlıq sahələrini daha da genişləndirmək istiqamətində səyləri artırıb. Eyni kökə sahib olan, ortaq mədəni və mənəvi dəyərləri bölüşən və bir-birinə bağlı olan türk dövlətlərinin möhkəm birliyinin olması gündəmi zəbt edən məsələlərdəndir. Çünki hazırkı gərgin, sürətli dəyişikliklərə məruz qalan beynəlxalq münasibətlər sistemi türk dövlətlərindən həmrəylik və bir-biriləri ilə sıx əməkdaşlığı tələb edir. Təsadüfi deyil ki, məsələyə bu prizmadan yanaşan ölkəmizin xarici siyasətində türk dövlətləri ilə münasibətlərin davamlı şəkildə gücləndirilməsi, yeni əməkdaşlıq əlaqələrinin yaradılması prioritetdir.

Noyabrın 11-də Özbəkistanın Səmərqənd şəhərində Türk Dövlətləri Təşkilatının növbəti - IX Zirvə görüşündə müzakirə olunan məsələlər göstərdi ki, ötən il İstanbulda keçirilmiş VIII Zirvə görüşündən sonra türk dövlətləri arasındakı əlaqələr yüksələn xətlə inkişaf edib.

Qeyd edək ki, Türk Dövlətləri Təşkilatının məqsəd və vəzifələri tərəflər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, regional və dünyada sülhün bərqərar olması, xarici siyasət məsələlərində ortaq yanaşmanın təşviqi, ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi, beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi, elm, texnologiyalar, təhsil və mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi, ticarət əlaqələri və investisiyalar üçün əlverişli şəraitin yaradılmasıdır.

Zirvə görüşündə Türk dünyasının 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə etdiyini və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malik olduğunu deyən ölkə başçımız bildirib ki, Türk dünyasını təmsil edən dövlətlər bir-birinin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməlidir.

Prezident İlham Əliyevin toxunduğu məsələrdən biri də Türk Dövlətləri Təşkilatının üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızla bağlı idi. Türk Dövlətləri Təşkilatının üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğramaması kimi məsələləri artıq təşkilat çərçivəsində daimi əsasda diqqətdə saxlamağın vaxtı olduğunu xüsusi vurğulayıb.

Dövlət başçıları, Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hər birinin türk dünyasının həmrəyliyinə töhfə verəcəyinə inamlarını ifadə ediblər. Qeyd olunub ki, hədəflərə doğru qətiyyətli addımların atılması, o cümlədən Zəngəzur dəhlizinin açılması türk dünyasının qlobal mövqelərini daha da möhkəmləndirəcək.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALBANİYAYA DÖVLƏT SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Albaniya Respublikasına dövlət səfərinə gedib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniyanın paytaxtı Tiranadakı "Brigades" Sarayında rəsmi qarşılanma mərasimi olub.

Albaniya Respublikasının Prezidenti Bayram Beqay Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.

Dövlət başçıları birgə foto çəkdiriblər.

Noyabrın 15-də Tiranada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə təkbətək görüşü olub.

Görüşdə iki ölkə arasında qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Albaniya Respublikasının Prezidenti Bayram Beqay mətbuata bəyanatlarla çıxış ediblər.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə rəsmi lanç əsnasında geniş tərkibdə görüşü olub.

Görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tiranada "Mother Albania" abidəsini ziyarət edib.

Noyabrın 15-də Tiranada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olub.

Sonra Tiranada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Albaniya Respublikasının Baş naziri Edi Rama tərəfindən nahar verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasına dövlət səfəri noyabrın 15-də başa çatıb.

## Rəsmi xronika

***Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 13-də İstanbulun mərkəzində törədilmiş partlayış nəticəsində insanların həlak olması ilə əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı teleqramı göndərib.***

***Dövlətimizin başçısı noyabrın 14-də Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

## BİRİNCİ VİTSE-PREZİDENTDƏN UNESCO-ya MƏKTUB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatının (UNESCO) xoşməramlı səfiri kimi fəaliyyətinə xitam verilməsi məqsədilə UNESCO-nun baş direktoru Odri Azuleyə məktub ünvanlayıb.

Məktubda Azərbaycanla UNESCO arasında əməkdaşlığın inkişaf etdirilməsi, bu təşkilatın dəyər və prinsiplərinin irəlilədilməsi sahəsində 2004-cü ildən xoşməramlı səfir kimi fəaliyyəti dövründə təşkilatla çoxsaylı birgə layihələrin əhəmiyyəti diqqətə çatdırılıb. Bu xüsusda 2013-cü ildə Azərbaycanla UNESCO arasında imzalanmış Çərçivə Sazişi, müvafiq Azərbaycan-UNESCO Etimad Fondu, mədəni irsin qorunması, qızların təhsili, gender bərabərliyi kimi sahələrdə bir sıra ölkələrdə həyata keçirilən layihələrə dəstək və digər tədbirlər qeyd olunub.

Məktubda, həmçinin 30 ilə yaxın işğal dövründə Ermənistan tərəfindən Azərbaycanın mədəni irsinə və tarixi abidələrinə qarşı həyata keçirilmiş siyasət və vandallıq barədə məlumat verilib. İndiki mərhələdə Vətən müharibəsi nəticəsində ərazilərimizin uzunmüddətli işğaldan azad edilməsindən sonra genişmiqyaslı bərpa və bölgənin dirçəldilməsi işlərinə Birinci vitse-prezidentin aktiv cəlb olunduğu və xüsusi rolu nəzərə alınaraq, onun UNESCO-nun xoşməramlı səfiri vəzifəsini yerinə yetirməsinin imkan xaricində olduğu vurğulanıb.

Qeyd edilənlərlə əlaqədar Ermənistanın işğalı nəticəsində Azərbaycanın mədəni irsinə dəyən zərərin qiymətləndirilməsi məqsədilə işğaldan azad olunmuş ərazilərə UNESCO missiyasının tezliklə təşkilinə ümid ifadə olunub.

Ünvanlanmış müraciətdə Azərbaycanın bundan sonra da UNESCO-nun təməl prinsiplərini qoruyub saxlayacağı, təşkilatla əməkdaşlığın inkişafını təşviq edəcəyi diqqətə çatdırılıb.




***Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il noyabr ayının 24-də Sumqayıt Şəhər Polis İdarəsinin inzibati binasında Sumqayıt, Abşeron, Qobustan, Qubadlı və Zəngilan şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.***

***Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 23.11.2022-ci il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.***

***Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.***




# 17 NOYABR, 1988-ci İL
## Müstəqil Azərbaycan uğrunda mücadilə tarixinin şanlı səhifəsi

1988-ci ilin noyabrında 100 minlərlə azərbaycanlı Ermənistanın təxribatlarına və Sovet İttifaqının ikili siyasətinə etiraz olaraq o zaman Bakıdakı Azadlıq meydanında toplaşdı. Bu, Azərbaycanda milli-azadlıq hərəkatının başlanğıcı idi.

Sovet İttifaqı rəhbərliyinin ermənilərin Dağlıq Qarabağa iddiasına loyal münasibəti və qərəzli mövqeyi, Azərbaycan xalqını ayağa qaldırmışdı. Yüz minlərlə insanın Azadlıq meydanına axışması isə ən yeni tarixin təməlini qoydu.

Mitinqin ilk günləri göstərdi ki, Azərbaycanda hələ SSRİ-nin heç bir yerində rast gəlinməyən mübarizə başlayır. Bu, əsl xalq hərəkatı, milli azadlıq mücadiləsi idi.

Bunları görən rəsmi Moskva İttifaq dönəmində Azərbaycanda ilk dəfə fövqəladə vəziyyət elan etdi. SSRİ-nin müxtəlif ərazilərində dislokasiya edilmiş daxili qoşun qüvvələri Bakıya gətirilərək meydanda yerləşdirildi, dekabrın 3-dən 4-nə keçən gecə isə mitinq iştirakçıları oradan zorla çıxarıldı. Onların bir qismi həbs edildi. O zaman xalq hərəkatı parçalansa da, millət öz arzusuna çatdı - 1988-ci il noyabrın 17-dən başlayan meydan hərəkatı azad Azərbaycanın təməlini qoydu.

Azərbaycanda bu hadisələr milli azadlıq hərəkatı kimi qiymətləndirilir və Vətənimizin istiqlaliyyət qazanmasında əsas amil sayılır. 1992-ci ildən 17 noyabr Milli Dirçəliş Günü kimi qeyd olunur.

Bu tarixi gün haqqında ulu öndər Heydər Əliyev deyirdi: "Xalqın qanında yaşayan azadlıq istəyinin, müstəqillik arzusunun qabağını heç bir qüvvə, hətta ən güclü sel belə kəsə bilməz"...

*R.Əliyeva*

# DİN blogerləri mükafatlandırdı




Daxili İşlər Nazirliyinin əhali arasında antinarkotik təbliğatın gücləndirilməsi məqsədilə elan etdiyi müsabiqə yekunlaşıb. 21 bloger tərəfindən təqdim olunan materiallara münsiflər heyəti tərəfindən baxış keçirilib, onlardan 7 material seçilərək müəllifləri müsabiqənin qalibləri olublar.

Noyabrın 14-də Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsində müsabiqə qaliblərinin mükafatlandırılması tədbiri keçirilib.

Baş İdarənin rəisi, polis general-mayoru İslam Hümbətov çıxışında daxili işlər orqanlarının narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində apardıqları qətiyyətli mübarizə, eləcə də bu istiqamətdə aparılan maarifləndirmə tədbirləri barədə qısa məlumat verib. O, qlobal problem olaraq bütün bəşəriyyəti narahat edən narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlığın aradan qaldırılması üçün cəmiyyətin birgə səylərinin tələb olunduğunu, hər kəsin ümumi işə real köməkliyinin vacibliyini qeyd edərək, əhali arasında antinarkotik təbliğatında göstərdikləri dəstəyə görə müsabiqə iştirakçılarına təşəkkürünü bildirib.

Daha sonra qaliblərə mükafatlar təqdim edilib.

İştirakçılar da öz növbələrində də blogerlərin bu istiqamətdə maarifləndirmə işlərinə cəlb olunmalarının vacib təşəbbüs olduğunu diqqətə çatdıraraq ölkə və DİN rəhbərliyinə təşəkkür edib, bundan sonra da öz fəaliyyətlərində sağlam gəncliyin formalaşmasında əllərindən gələni əsirgəməyəcəklərini bildiriblər.

*Zeyni Hüseynov,*
*polis baş leytenantı*

# Xatirəsi anılıb



Tərtər Rayon Polis Şöbəsinin əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olmuş Cahangir Surxayzadənin ildönümü münasibətilə məzarını və ailəsini ziyarət ediblər.

Çıxış edənlər onun keçdiyi döyüş yolundan, göstərdiyi şücaət və qəhrəmanlıqdan söhbət açıblar.

Şəhid Cahangir Surxayzadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

*Aslan Qiyaslı,*
*polis kapitanı*

# NARKOMANİYA: CİNAYƏTƏ GEDƏN YOL



Yeniyetmə və gəncləri zərərli vərdişlərdən qorumaq, narkotik vasitələrin, psixotrop maddələrin, eləcə də onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizəni daha səmərəli, effektiv təşkil etmək məqsədilə polis əməkdaşları tərəfindən maarifləndirici görüşlər davam etdirilir.

Bərdə Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə rayonun Qaradəmirçi kənd tam orta məktəbində şagirdlərlə keçirilən görüşdə RPŞ-nin rəisi, polis polkovniki Ənvər Həsənov narkotik vastələrdən istifadə edənlərin cəmiyyət üçün yaratdığı ciddi problemlərdən danışıb. Tədbirdə erkən nikahın səbəb olduğu problemlərdən söhbət açılıb, uşaqların təhsil almaq, karyera qurmaq, gələcəyini təmin etmək hüquqları olduğu diqqətə çatdırılıb.

Qobustan rayon 3 saylı tam orta məktəbdə "Narkomaniyaya yox deyək!" mövzusunda keçirilən maarifləndirmə tədbirində RPŞ-nin rəisi vəzifəsini müvəqqəti icra edən, polis mayoru Fərid Fətəliyev müasir dövrdə narkomaniyanın genefondumuza ən böyük təhdid olduğunu deyərək şagirdlərə real faktlara əsaslanan narkotiklərin törətdiyi faciələri misal çəkib, o cümlədən polisin narkomaniyaya qarşı apardığı qətiyyətli mübarizə barədə ətraflı məlumat verib.



Tərtər Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə rayonun Xoruzlu kənd tam orta məktəbində baş tutan narkomaniya əleyhinə maarifləndirici görüşdə çıxış edən Tərtər RPŞ-nin rəisi, polis polkovniki Elçin Qasımov bu kimi tədbirlərin əhəmiyyətindən söz açıb. Vurğulayıb ki, yeniyetmə və gənclərimiz yüksək təhsil almalı, müasir informasiya texnologiyalarından istifadə etməyi bacarmalı, idmanla məşğul olmalı, milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda böyüməli, cəmiyyətimiz üçün sağlam fərdə çevrilməlidirlər.

*Ardı 3-cü səhifədə.*



# Kursantlarımız fərqləndilər

Noyabrın 12-də "Heydər Əliyev və Azərbaycan tarixi" VIII ümumrespublika bilik yarışı keçirilib.

Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə 8-ci dəfə keçirilən yarışda ölkə üzrə 49 ali təhsil müəssisəsinin tələbələri iştirak edib.

Diqqətə çatdırılıb ki, artıq ənənəyə çevrilən bu layihə Azərbaycan tarixinin və ümummilli lider Heydər Əliyevin həyatının, çoxşaxəli fəaliyyətinin öyrənilməsinə, gənclər arasında maarifləndirməyə yönəlib. İştirakçılar "Heydər Əliyev və Azərbaycanın müstəqillik illəri", "Heydər Əliyev və Qarabağ həqiqətləri", "Azərbaycanın Vətən müharibəsindəki Zəfəri", "Qarabağın dirçəlişi" və digər mövzulardakı suallar üzrə biliklərini sınayıblar. Komandalar hazırlıq mərhələsində Heydər Əliyev Mərkəzində təşkil olunan təlimlərdə iştirak edib, Heydər Əliyev Muzeyində ki arxiv materialları əsasında mövzular üzrə araşdırma aparıblar.

Yarışda hər ali təhsil müəssisəsini 6 nəfərdən ibarət bir komanda təmsil edib. Üç turun sonunda ümumrespublika bilik yarışının qalibləri seçilib. Qaydalara əsasən, münsiflər heyəti hər düzgün cavabı bir xalla qiymətləndirib. Ümumi xallar üzrə qalib komanda müəyyənləşib.



Bilik yarışında Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının komandası birinci, Daxili İşlər Nazirliyinin Polis Akademiyasının komandası ikinci, Dövlət Sərhəd Xidmətinin Akademiyasının komandası üçüncü yerə layiq görülüb.

Yarışda yer tutan komandalar mükafatlandırılıb, komandaların hər bir üzvünə iştirakçı sertifikatları təqdim edilib.

*"Polis"*

# ZƏFƏR TARİXİMİZİ ONLAR YAZDI

## Təkcə torpaqlarımız deyil, ruhumuz da azadlığına qovuşdu

Daxili Qoşunların Vətən uğrunda şəhidlik zirvəsinə ucalmış cəsur xüsusi təyinatlılarından biri də çavuş Əbdürəhmanlı Sabir Faiq oğludur.

O, 1998-ci il martın 9-da Bakıda doğulub. Orta təhsilini Sumqayıtda müvəqqəti yerləşən şəhid Bəhmən Mehdiyev adına Qubadlı şəhər 2 saylı tam orta məktəbdə alıb. Məhz bu səbəbdən də Sabir əslən Ağdam rayonunun Mahrızlı kəndindən olsa da, bəzi mənbələrdə yanlış olaraq Qubadlı rayonundan olduğu yazılıb.

Şəhid anası Mehparə Çubanova: "O, mənim gözümün ağı-qarası, yeganə övladım, ümid çırağım idi. Hələ kiçik yaşlarından hərbi xidmətə böyük maraq göstərib.

Yaxşı yadımdadır, Sumqayıt şəhərində yeni aldığımız mənzilə köçürdük. Əşyalarımızı daşıyıb, yerbəyer edirdik. O zaman Sabir çox kiçik idi, yaxşı danışa da bilmirdi. Qonşular ondan böyüyəndə nə olacağını soruşmuşdular. Əlindəki xəmiryayanı silahı kimi tutub: "Azərbaycan əsgəri!" – deyə cavab vermişdi...

Çox zirək uşaq olub. İdmanı çox sevirdi. Beşinci sinifdən idmanın karate növü ilə məşğul olub, keçirilən yarışlarda göstərdiyi yüksək nəticələrə görə müxtəlif dərəcəli diplom və medallarla təltif edilib. "Qəhvəyi kəmər" ustası idi. Ümumiyyətlə, hər şeyin yerini bilən, deyib-gülən, çətin anlarımda mənə ürək-dirək verən bir övlad idi. Biz ana-bala yox, sanki dost, sirdaş olmuşuq. Cəbhə bölgəsinə getməzdən öncə, sentyabrın 25-də onunla cəmi bir saatlıq görüşüb, söhbət edə bildik. Elə bilirdim yenə də təlimə gedirlər...

Düzdür, bir ana kimi övlad acısı qəlbimi göynətsə də, bircə təsəllim odur ki, torpaqlarımız azad edildi, şəhid və qazilərimizin intiqamı erməni işğalçılarından alındı və qanları yerdə qalmadı".

Mehparə xanım onu da qeyd etdi ki, Sabirin əmisi Famil Əbdürəhmanov Birinci Qarabağ müharibəsi zamanı şəhid olub.

Sabir müddətli həqiqi hərbi xidmətini 2016-cı ilin aprel ayından 2017-ci ilin oktyabr ayınadək Daxili Qoşunların 25031 və 17071 saylı hərbi hissələrində keçib. Bu dövrdə qoşunların 12318 saylı hərbi hissəsində kiçik komandirlər kursunu bitirərək, "çavuş" hərbi rütbəsinə yüksəlib.



Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qoşunların 17072 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə keçirilərək, atıcı vəzifəsində Vətənə olan şərəfli borcunu yerinə yetirməyə davam edib. 2017-ci ilin noyabr ayından hərbi hissənin "Pələng" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupunun 60 mm minaatan yarımqrupunda heyət nəfəri, 2018-ci ilin may ayından etibarən isə xüsusi həmlə qrupunda heyət nəfəri kimi xidmət edib. Hər zaman yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi xidməti ilə böyük rəislərin etimadını doğruldub, hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlarda fəal iştirak edən çavuş S.Əbdürəhmanlının Murovdağdan Cəbrayıladək keçən döyüş yolu qısa olsa da, bir sıra strateji əhəmiyyətli yüksəkliklərin və yaşayış məntəqələrinin azad olunmasında rəşadət göstərib.

Döyüş yoldaşı çavuş E.Əhmədağalı deyir ki, sentyabrın 30-da günortadan sonra "Canavar sağ"dan Çiçəklidağ yüksəkliyinə doğru irəliləyərkən düşmənin atdığı minaatan mərmisinin yanlarında partlaması nəticəsində döyüşçü yoldaşları çavuş Həsən Abdullayev aldığı ağır qəlpə yarasından yerindəcə şəhid olub, Sabir isə partlayış travması alıb. Çavuş S.Əbdürəhmanlı döyüş meydanından təxliyyə olunub və Göygöl Rayon Mərkəzi Xəstəxanasına gətirilib: "Sabir burada üç gün qaldıqdan sonra müalicəsi hələ tam başa çatmamış səhhətinin normal olduğunu və döyüş meydanında düşmənə qarşı mübarizəni davam etdirmək istədiyini bildirdi. Beləliklə, oktyabrın 3-də Füzuli rayonu ərazisində yenidən qrupumuzun tərkibinə qatılan Sabir oktyabrın 4-dən etibarən bizimlə birgə Cəbrayıl istiqamətindəki döyüşlərdə fəal iştirak etdi. Döyüşlər zamanı şəxsi heyətimiz Müdafiə Nazirliyinin xüsusi təyinatlıları ilə birgə Cəbrayıl şəhərinin, eləcə də rayonun bir sıra yaşayış məntəqələrinin və mühüm əhəmiyyətli yüksəkliklərin azad edilməsində fərqləndi.

Oktyabrın 6-da növbəti tapşırığımız Cəbrayıl rayonunun Daş Veysəlli kəndi ətrafındakı yüksəkliklərdə yerləşən düşmən canlı qüvvəsinin məhv edilməsi oldu. Həmin gün günorta saatlarında ermənilər beş tank və iki yüzədək canlı qüvvə ilə üzərimizə hücuma keçdilər. Şiddətli döyüş bir-neçə saat davam etdi. Cəsur döyüşçülərimizin qəhrəmanlığı sayəsində ermənilərin yetmişədək canlı qüvvəsi və üç tankı məhv edildi. Bundan əlavə, açıq döyüşdən qorxub qaçan düşmənin iki tankı və xeyli sayda silah-sursatı qənimət olaraq ələ keçirildi. Sabir bu döyüşdə xüsusilə fərqlənmişdi. Həmin gün kəndin ətrafındakı bir neçə erməni postu bölmələrimiz tərəfindən azad edilsə də, qarşıdakı bəzi yüksəkliklərdə düşmənin möhkəmləndirilmiş postları hələ də qalırdı.

Oktyabrın 8-i səhər tezdən kəndin yaxınlığında yerləşən düşmənin digər postuna hücum etdik. Postda müdafiə olunan erməni əsgərlərindən on ikisi məhv edildi, digərləri isə qorxularından silahlarını da ataraq qaçıb canlarını qurtara bildilər. Lakin bu döyüş Sabirin son döyüşü oldu. Baş nahiyəsindən güllə yarası alan cəsur silahdaşımız əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəldi".

Çavuş S.Əbdürəhmanlı 2020-ci il oktyabrın 9-da Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 15, 24, 29 dekabr 2020-ci il tarixli və 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları, həmçinin, Azərbaycan Respublikası müdafiə nazirinin 3 noyabr 2020-ci il tarixli əmri ilə çavuş Əbdürəhmanlı Sabir Faiq oğlu (ölümündən sonra) "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edilib.

*mayor Anar Əhmədov*

# Bir məktubun izi ilə...



"Azərbaycan Polisinin xidməti rəğbətə layiqdir. Ölkə vətəndaşı olaraq görülən işləri görməzdən gələ bilmirəm. Dəfələrlə dara düşən insanlara polisin həssaslıqla yanaşaraq kömək göstərməsinin şahidi olmuşam. Ona görə də təşəkkürümü qələmə almağı özümə borc bildim". Bu sözlər Qorxmaz Abdurrahmanovun redaksiyamıza daxil olan təşəkkür məktubundandır.

Məktubda əcnəbi vətəndaşın cibgirlər tərəfindən oğurlanan pulunun özünə qaytarılmasında, səhhətində problem yaranan sürücünün xidməti maşınla xəstəxanaya çatdırılmasında, Vətən müharibəsində yaralanan əsgərlərə, qazilərə yardım göndərilməsində məhz **Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin Müşayiət Eskort Bölüyünün 3-cü taqımının komandiri, polis mayoru Namiq Mustafayevin** xüsusi fədakarlıq nümayiş etdirdiyi də qeyd olunub.

Taqım komandiri N.Mustafayevlə dislokasiya üzrə təhkim olunduğu ərazidə uzun israrımızdan sonra görüşə bildik. Yol hərəkəti iştirakçıları ilə nümunəvi davranışı, nəzakətli ünsiyyəti deyilənlərin və yazılanların bariz nümunəsi idi.

Barəsində təşəkkür məktubu ünvanlayan vətəndaşa isə həmkarımızın cavabı belə oldu: "Qardaşımıza deyin ki, uşaqlığı müharibənin odlu-alovlu illərinə təsadüf edən, döyüşlərdə ölümlərdən sıyrılan bir atanın balası bu millətə, bu Vətənə layiqli, fədakar xidmətilə qürur duyur, onların xeyir-duası onu, o isə yollarda sizləri qoruyur".

# NARKOMANİYA: Cinayətə gedən yol

*Əvvəli 2-ci səhifədə.*

Anoloji görüş Zərdab rayon 2 saylı tam orta məktəbdə də keçirilib.

RPŞ-nin Cinayət Axtarış Bölməsinin rəisi, polis kapitanı Murad Muradlı dövrümüzün bəlası olan "ağ ölümün" insanlara vurduğu mənəvi və maddi zərərlərdən danışıb. Bildirib ki, bu bəlanın qurbanına çevrilən şəxslər sağlam həyata qayıtmağa çətinlik çəkir, vaxt keçdikcə isə cəmiyyətdən tamamilə təcrid olurlar. Tədbirdə yeniyetmələrə həyatlarını məhv edən narkomanların şirin vədlərinə aldanmamaq, onların toruna düşməmək üçün daima diqqətli və ayıq-sayıq olmaları da tövsiyə olunub.




Antinarkotik təbliğatı çərçivəsində Masallı rayonunun Hişkədərə kənd tam orta məktəbində "Sağlam gələcək naminə narkomaniyaya yox deyək!" mövzusunda görüş keçirilib.

Tədbirdə çıxış edən Masallı RPŞ-nin rəis müavini, polis polkovnik-leytenantı Elvin Əzimov əsrin bəlası olan narkomaniyaya qarşı mübarizəni təmin etmək məqsədilə bu cür görüşlərin keçirilməsinin mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb və sağlam cəmiyyətin formalaşması istiqamətində ən ciddi təhlükələrdən olan narkomaniyanın törətdiyi fəsadlar barədə ətraflı məlumat verib.



Balakən Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Humanitar və Texniki təmayüllü liseydə baş tutan maarifləndirici görüşdə insanı cəmiyyətdən təcrid edən, mənəviyyatına, şüuruna, bir sözlə ömrünə balta çalan narkomaniyanın özünə qəsdin bir forması olduğunu iştirakçıların diqqətinə çatdıran polis əməkdaşları narkomaniya ilə mübarizədə polis-məktəb-valideyn həmrəyliyinin əhəmiyyətindən söz açıblar. Qeyd olunub ki, məhz birgə səylər nəticəsində gəncliyimizi, gələcəyimizi "ağ ölüm"dən uzaq tutmaq olar.

Tədbirlərdə narkotiklərin törətdiyi fəsadlarla bağlı videoçarxlar nümayiş etdirilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Komandamız BİRİNCİ olub

Polşanın Keltse şəhərində boks üzrə beynəlxalq turnir keçirilib.



DİN İdman Cəmiyyətinin yetirmələri Ümid Rüstəmov 57 kiloqram çəki dərəcəsində əvvəlcə rumıniyalı Tirzoman Eysebyunu, finalda irlandiyalı Patrik Adamusu, Murad Allahverdiyev isə 80 kiloqram çəki dərəcəsində Moldova idmançısı Andrey Çiryasovu məğlub edərək çempion adını qazanıblar.

Qeyd edək ki, 16 ölkənin iştirak etdiyi yarışda millimiz 7 qızıl və 4 bürünc medal qazanmaqla komanda hesabında birinci olub.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Kibercinayətlərin qurbanı olmayaq!



"Vətəndaşların diqqətinə! Son zamanlar bəzi işbazlar müxtəlif saytlarda saxta elan yerləşdirməklə (kirayə ev, mobil telefon satışı, işə düzəltmək, müxtəlif xidmətlər və s.) vətəndaşların etibarından sui-istifadə edirlər. Xahiş olunur bu kimi şəxslərə etibar edib bank kartına və ya hər hansı bir hesab nömrələrinə pul göndərməyin. Səbail **RPİ 9-cu PB-nin sahə inspektoru, polis kapitanı Yunis Məmmədov".**

Bu elana adıçəkilən sahə inspektoruna təhkim olunmuş ərazidəki ticarət mərkəzlərində, marketlərdə, eləcə də insanların sıx toplaşdığı yerlərdə ödəniş terminallarının üzərində rast gəlmək mümkündür.

Diqqətimizi çəkən bu təşəbbüs, bu çağırış vətəndaşları dələduzların "şirin vədlərinə" aldanmamaq üçün polisin seçdiyi, həm də maraqlı mübarizə üsuludur.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Daxili İşlər Nazirliyi Salyan "ASAN Xidmət" mərkəzində vakant olan vəzifələrə xidmətə qəbulla əlaqədar MÜSABİQƏ ELAN EDİR

Daxili İşlər Nazirliyi Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə bilavasitə tabe olan Salyan "ASAN Xidmət" mərkəzi üzrə regional qrupda vakant olan 24 (iyirmi dörd) kiçik rəis heyəti vəzifəsinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən olunmuş şərtlərə cavab verən, yaşı 20-dən 30-dək, ailəli, boyu 160 santimetrdən yuxarı olan, özü və yaxın qohumları məhkum olunmamış, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, Salyan, Neftçala və Biləsuvar rayonlarında yaşayış yeri üzrə daimi qeydiyyatda olan qadın vətəndaşlar iştirak edə bilərlər.

Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılacaq, ali təhsilli, xarici dillərdən birini sərbəst bilən və kompüterlə işləmək qabiliyyətinə malik namizədlərə üstünlük veriləcək.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2022-ci il noyabrın 10-dan dekabrın 10-dək iş günləri saat 10:00-dan 17:00-dək Bakı şəhəri R.Behbudov küçəsi 130 ünvanında yerləşən Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- şəxsiyyət vəsiqəsi;*

*- təhsil haqqında sənədin əsli;*

*-əmək kitabçası (olanlar üçün).*

Müsabiqə qaliblərinə müvafiq xüsusi rütbə veriləcək və qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

**Əlavə məlumat almaq üçün əlaqə telefonu: (012) 590-64-41**

# Atıcı həmkarlarımız qardaş ölkədə



Ankarada Çölbaşı Təlim Mərkəzində Türkiyənin hüquq mühafizə orqanları əməkdaşları arasında atıcılıq üzrə keçirilən yarışda Azərbaycanın və Şimali Kipr Türk Respublikasının nümayəndələri fəxri qonaq qismində iştirak ediblər.

DİN İdman Cəmiyyətinin İdmanın təşkili şöbəsinin rəisi, polis polkovnik-leytenantı Munir Orucov yarışın təcrübə mübadiləsi, dostluq və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi, həmçinin əməkdaşlarımızın peşə hazırlığının düzgün təşkil edilməsi və sərrast nişançılarının sayının artması məqsədi daşıdığını bildirib.

Parkur yarışında əməkdaşların hədəfə qaçan elecə də, oturan yerdə, uzanıqlı vəziyyətdə, pilləkənlə qalxan zaman və otağa daxil olarkən atəş açmaq bacarıqları da yoxlanılıb.

Yarışda fərqlənən həmkarlarımızın - Əlahiddə Çevik Polis Alayının Xüsusi Təyinatlı 1-ci taborun 1-ci bölüyünün taqım komandiri, polis mayoru Tamerlan Başirov və 2-ci taborun 2-ci bölüyünün polis nəfəri, polis serjantı Zülfüqar İbayevin nəticələri Türkiyə komandanlığı Emniyyet Genel Müdürlüğü Özel Harekat Başkanlığı tərəfindən yüksək qiymətləndirilib.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Təbrik edirik!



***Azərbaycan Prezidenti İlham Əliyevin 12 noyabr 2022-ci il tarixli sərəncamı ilə DİN İdman Cəmiyyətinin sədri, polis polkovniki Zemfira Meftahətdinova Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin yaradılmasının 30 illik yubileyi münasibəti ilə və idmanın inkişafında xidmətlərinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.***

***Qeyd edək ki, Zemfira Meftahətdinova 2000 Sidney Olimpiadasının qızıl, 2004 Afina Olimpiadasının isə bürünc medalını qazanıb. 1993, 1997 və 2003-cü illərdə Avropa çempionu olan Zemfira Meftahətdinova müstəqil Azərbaycanın birinci Olimpiya çempionu kimi tarixə düşüb. O, 1995 və 2004-cü ildə "Tərəqqi" medalı, 2000-ci ildə isə "Şöhrət" ordeni ilə təltif edilib.***

***"Polis" qəzetinin kollektivi həmkarımızı təbrik edir, ona bundan sonrakı xidmət illərində yeni uğurlar arzulayır.***




# Üzünüz hansı xəstəlikdən xəbər verir?

İnsanın üzündən onun xasiyyətini öyrənmək mümkün olduğu kimi, sən demə daxili aləmini və xəstəliklərini də öyrənmək olurmuş. Bu mənada üzü kimliyimizin xəritəsi adlandırmaq olar.

Dolayısı ilə insanın üzünə baxanda xəstəlikdən əziyyət çəkdiyini müəyyən edə bilərik.

Alın bağırsaqların göstəricisidir. Aşağı hissə - nazik bağırsaq, yuxarı hissə - qalın bağırsağın vəziyyətini bildirir. Alnınızda yaranan xoşagəlməz civzələr bağırsaqlarda yaranan problemi göstərir.

Gicgah öd kisəsinə cavabdehdir. Öd kisəsinin funksiyası pozulanda gicgahda qızartı və sızanaqlar yaranır və ağrılar olur.

Yanaqlar ağciyər xəstəliklərinin əlamətidir. Sağ yanaq sağ ciyərə, sol yanaq sol ciyərə aiddir.

Burun pərləri tənəffüs sistemi və bronxlara aiddir. Üzdə qəhvəyi rəngli piqment ləkələrin əmələ gəlməsi qaraciyər xəstəliklərindən xəbər verir. Göyümtül- ağarmış sifət - anemiya, ağciyər soyuqdəyməsinin əlamətidir. Saralmış üz - qaraciyərdəki dəyişiklikdən xəbər verir.

*R.Əliyeva*


# XƏZRİ sizi gözləyir



**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində 16 sentyabr 2022-ci il - 31 may 2023-cü il tarixlərində 2-ci mövsüm üzrə standart otaqların bir günlük qiymətləri**

**(Daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 25,00 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 75,00 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 100,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 125,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

6. Karantin rejimi dövründə 18 yaşdan yuxarı şəxslərin COVİD-19 pasportunun təqdim etməsi mütləqdir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. "Koroğlu" metro stansiyasından Mərkəzə 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**Veb-sayt: www.khazri.mia.gov.az**
**E-poçt: info@khazri.mia.gov.az**

| 16 sentyabr 2022-ci il - 31 may 2023-cü il | | |
|---|---|---|
| (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 200 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 25,00 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 50,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 100,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |


# STATİSTİKA

## Kriminal icmal

- Noyabrın 10-dan 16-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan 269, əvvəlki dövrlərdən bağlı qalan 48 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 401, o cümlədən borclu şəxs qismində axtarışda olan 303 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 9 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 9 nəfər ölüb, 2 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 127, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 25 fakt müəyyən edilib.

*Natiq Cavadov*


POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik